

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 160 (21.061)**

***23 avqust 2014-cü il, şənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də ABŞ Nəqliyyat Komandanlığının yeni təyin olunmuş komandanı Pol Jozef Selvanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat infrastrukturu sahəsində uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycanda nəqliyyat infrastrukturu, yerüstü daşımalar və yük daşımaları üçün əlverişli xidmət vasitələrinin yaradıldığı bildirildi, bu istiqamətdə böyük layihələrin həyata keçirilməsinin önəmi qeyd olundu.

Görüşdə həmçinin Azərbaycanın əlverişli coğrafi mövqeyi və əldə etdiyi iqtisadi uğurlar nəticəsində ölkəmizin beynəlxalq nəqliyyat daşımaları sahəsində mühüm məkanlardan birinə çevrildiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyada iştirakı, nəqliyyat təminatı sahəsinə verdiyi töhfə yüksək qiymətləndirildi, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 10-cu maddəsinə əsasən, Naxçıvan muxtar dövlətinin rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

Dövlət bayrağı müstəqilliyi təcəssüm etdirir. Ona görə də bayrağa münasibət Azərbaycanda tarix boyu özünü qabarıq şəkildə göstərmiş, xalqın milli mövcudluq simvolu sayılmışdır. Tariximizin ən dəyərli eksponatları sırasında mühüm yer tutan dövlət rəmzləri və bayraqlar Azərbaycanın qədim dövlətlərinin, o cümlədən Naxçıvan xanlığının və muxtar respublikanın tarixini öyrənməyə geniş imkanlar yaradır.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il 9 noyabr tarixli qərarı ilə milli bayraq kimi qəbul edilmiş üçrəngli bayraq ikinci dəfə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Sovetinin sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmişdir. Azərbaycan dövlətçiliyinin bərpası istiqamətində taleyüklü məsələlərin müzakirə edildiyi həmin sessiyada "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərar qəbul olunmuş və üçrəngli bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi təsis edilməsi haqqında Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırılmışdır.

Bayraq millətin şərəfi, onun milli varlığının təsdiqidir. Xalqın və dövlətin simvolu olan bayraq hər zaman ucalarda tutulur. Dövlət bayrağına ehtiram göstərilməsi hər bir vətəndaşın müqəddəs borcu, dövlətin suverenliyinə olan sevgi və hörmətinin göstəricisidir.

Yuxarıda göstərilənləri nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 avqust 2014-cü il*

## Sağlamlıq imkanları məhdud 15 uşaq Gürcüstanın Acarıstan Muxtar Respublikasına müalicəyə göndərilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2012-ci ilin yanvar ayında Gürcüstanın Acarıstan Muxtar Respublikasına səfəri zamanı digər sahələrlə yanaşı, səhiyyə sahəsində də əlaqələrin inkişafı barədə fikir mübadiləsi aparılmış, bu sahədə qarşılıqlı əməkdaşlığın perspektivləri nəzərdən keçirilmişdir. Ali Məclisin Sədri səhiyyə sahəsində əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd etmiş, tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən acarıstanlı uşaqların Naxçıvanın Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunması barədə təklifi razılıqla qarşılanmışdır. Ötən dövr ərzində əməkdaşlığın inkişafı daha da genişlənmiş, tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən acarıstanlı uşaqların iki dəfə Naxçıvan Muxtar Respublikasının Duzdağ Fizioterapiya Mərkəzində müalicəsi təşkil edilmişdir.

Avqustun 22-də isə Naxçıvan Muxtar Respublikasından sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlardan 15 nəfəri Gürcüstanın Acarıstan Muxtar Respublikasının Batumi şəhərindəki Tana Reabilitasiya Mərkəzinə yola salınmışdır. Yolasalma mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev çıxış edərək bildirmişlər ki, muxtar respublikamızda bütün kateqoriyadan olan vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikasında uşaqların, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunması, reabilitasiyası, sosial müdafiəsi, habelə onların cəmiyyətə inteqrasiyası, təhsili və asudə vaxtlarının səmərəli təşkili üçün də mühüm tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan uşaqların Acarıstan Muxtar Respublikasına 14 günlük müalicəvi istirahətə göndərilməsi də göstərilən dövlət qayğısının növbəti təzahürüdür.

Çıxış edənlər uşaqlara mənalı istirahət və uğurlu yol arzulamışlar.

Valideynlər adından çıxış edən Şərur rayon Ərəbyengicə kənd sakini Qönçə Yusifova göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirmişdir.

Qeyd edək ki, yaxın günlərdə Gürcüstanın Acarıstan Muxtar Respublikasından bronxial-astma xəstəliyindən əziyyət çəkən bir qrup uşağın müalicə üçün Duzdağ Fizioterapiya Mərkəzinə gələcəyi gözlənilir.

**Səbuhi HƏSƏNOV**

***5 avqust 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinə verilmiş tapşırıqların icrası ilə bağlı Naxçıvan Biznes Mərkəzində yığıncaq olmuşdur.***

## Qış aylarında əhalinin tələbatının keyfiyyətli məhsullar hesabına ödənilməsi üçün həyata keçirilən tədbirlər diqqət mərkəzindədir



Yığıncaqda məruzə ilə çıxış edən iqtisadiyyat və sənaye naziri Famil Seyidov bildirmişdir ki, müşavirədə nazirliyə qış aylarında əhalinin tələbatının keyfiyyətli məhsullar hesabına ödənilməsi üçün mövsüm ərzində istehsal olunmuş yerli kənd təsərrüfatı məhsullarının soyuducu anbarlar tərəfindən alınmasının və yeni istixanaların yaradılması istiqamətində tədbirlərin davam etdirilməsi, məhsulların spesifik xüsusiyyətləri nəzərə alınmaqla anbar şəraitində saxlanılması üçün əlavə tədbirlər görülməsi, mövcud istixanalardan səmərəli istifadəyə nəzarətin artırılması barədə tapşırıqlar verilmişdir.

Qeyd olunmuşdur ki, əhalinin payız-qış mövsümündə meyvə və tərəvəz məhsullarına olan tələbatının ödənilməsində soyuducu anbarların mühüm əhəmiyyəti nəzərə alınaraq ötən müddət ərzində dövlət qayğısı ilə ümumi tutumu 12 min 150 ton olan 17 hüquqi və fiziki şəxsə məxsus 19 soyuducu anbar istifadəyə verilmişdir. Bu anbarlara mövsüm ərzində tədarük olunan məhsullar idxaldan asılılığın aradan qaldırılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinin stimullaşdırılması və əhalinin tələbatının etibarlı təminatı istiqamətində mühüm əhəmiyyət daşıyır. 1 iyul 2013-cü il tarixdən 1 avqust 2014-cü il tarixədək muxtar respublika ərazisində fəaliyyət göstərən və meyvə-tərəvəz saxlanması üzrə ixtisaslaşmış 10 soyuducu anbara kartof, soğan, sarımsaq, alma, armud, şaftalı, ərik və nar olmaqla, ümumilikdə, 6228,75 ton məhsul tədarük olunmuşdur.

Anbarlara tədarük olunan və saxlanılan məhsulların keyfiyyət göstəricilərinin yoxlanılması da diqqətdə saxlanılmış, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin laboratoriyası tərəfindən 141 halda kartof, soğan və alma məhsullarından nümunələr götürülərək keyfiyyət göstəriciləri təhlil edilmiş, göstəricilərin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilmişdir.

Bildirilmişdir ki, muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunmasında istixana komplekslərinin də rolu böyükdür. Bu sahəyə göstərilən diqqət və qayğı nəticəsində bu gün muxtar respublikada tərəvəz yetişdirən istixana komplekslərinin sayı 12-yə, ümumi sahəsi isə 52 min 316 kvadratmetrə çatdırılmışdır. 1 iyul 2013-cü il tarixdən 1 iyul 2014-cü il tarixədək istixana komplekslərində 48 min 928 kvadratmetr sahədə əkin aparılmış və 368,2 ton məhsul istehsal olunmuşdur.

Vurğulanmışdır ki, Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissələrinin su ilə təchizatını təmin etmək məqsədilə müəssisələrə 550 ton su sifariş verilmiş və bu günə qədər 372,3 ton suyun verilməsi təmin edilmişdir.

Nazir qarşıda duran vəzifələrdən də danışaraq bildirmişdir ki, soyuducu anbarların və istixana komplekslərinin sahibkarları arasında maarifləndirmə işlərinin aparılması, istehsalçı və tədarükçü sahibkarların fəaliyyətinin əlaqələndirilməsi davam etdirilməlidir. Məhsulların spesifik xüsusiyyətləri nəzərə alınmaqla tədarük müddətində məhsulların saxlanması qaydalarına riayət olunmalıdır. Anbarlarda fəaliyyət göstərən işçilərə normativ-texniki qaydalar aşılanmalıdır. Tədarük olunan və istixana komplekslərində yetişdirilən məhsulların "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyasında analizləri aparılmalıdır.

Yığıncaqda nazirliyin aparat rəhbəri Anar Əhmədov payız-qış mövsümü ilə əlaqədar təsdiq olunmuş icra planı, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Səbuhi Seyidov soyuducu anbarlara tədarük olunan məhsulların normativ-texniki sənədlərin tələblərinə uyğun saxlanılması qaydaları haqqında məlumat vermişlər.

**Muxtar MƏMMƏDOV**

Jurnalistin qeydləri

# Dövlət qayğısı Püsyan kəndini müasirləşdirir

*Peşəmlə, işimlə əlaqədar olaraq Şərur rayonunun əksər kəndlərində olsam da, son zamanlar Püsyana yolum düşməmişdi. Rayon mərkəzindən 23 kilometr cənub-şərqdə yerləşən Püsyanda aparılan genişmiqyaslı quruculuq işləri haqqında bu günlər tez-tez eşitdiyim xoş sözlər məndə həmin kəndə getmək marağı yaratdı.*

### Tarixi yaddaş

Püsyan kəndi Şərurun ən iri yaşayış məntəqələrindən biridir. Dörd min beş yüzdən çox insan Tanrının heç bir səxavətinə “tamarzı” qalmayan bu yurd yerinin qoynuna sığınaraq xoş və firavan həyat sürür. Püsyan kəndinin tarixi çox qədimlərə gedib çıxır. Bunu aparılan arxeoloji qazıntıların elmi təhlili də təsdiq edir. Kəndin cənub-şərqindəki antik dövrə aid yaşayış yerinin sahəsi 3 hektardır. Burada aşkarlanan maddi-mədəniyyət nümunələri eramızdan əvvəl I və eramızın II əsrlərinə aid edilir.

Kəndin cənub-şərqində yerləşən daha bir arxeoloji abidə antik dövrə aid nekropoldur. Sahəsi 1200 kvadratmetrdir. Hər tərəfdən əkin sahələri ilə əhatə olunub. 1981-ci ildə təsərrüfat işləri görülərkən aşkara çıxıb. Abidələr daş qutu və torpaq qəbirlərdən ibarətdir. Abidənin eramızdan əvvəl II-I əsrlərə aid olunması ehtimal edilir.

Bəli, Püsyan kəndi çoxəsrlik qədim tarixə malikdir, zamanın gərdişini, isti-soyuğunu, dolanbaclarını görüb, xoş günləri də olub, sıxıntıya tuş gələn çağları da. Lakin bir məsələ dəqiqdir ki, yaşı əsrlərlə ölçülən bu qədim yaşayış məskəni özünün əsl firavan həyatına, səadətinə ölkəmiz müstəqillik qazandıqdan sonra qədəm qoyub.

Son illər kənd özünün hərtərəfli inkişafı ilə bütün sahələr üzrə öndə gedir. Buranın adamları ictimai, iqtisadi, siyasi və mədəni işlərdə fəaldırlar. Qədim təhsil və mədəniyyət ənənələrinə malik Püsyan kəndi öz ziyalıları, səmimi, mehriban və qonaqpərvər insanları ilə də öyünür.

### Quruculuq ərməğanları və sakinlərin ürək sözləri

Hazırda Püsyan kəndində sakinlərin həyat şəraitini yaxşılaşdırmaq üçün kompleks tikinti-quruculuq işləri həyata keçirilir. Kənd mərkəzi, sözün həqiqi mənasında, tikinti meydançasını xatırladır. Kənddə 4 bina tikilir. Həmçinin Naxçıvan və Şərur şəhərlərinə gedən yolların əsaslı təmirinə hazırlıq işləri görülür.

Hər bir xalqın həyatında təhsilin əvəzsiz rolu vardır. Mükəmməl biliyə yiyələnmədən müasir inkişafa nail olmaq mümkün deyil. Təhsilin Vətən və millətin həm bu günü, həm də gələcəyi üçün vacib strateji sahə olduğunu xüsusi vurğulayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qədim diyarımızın hərtərəfli inkişafını təmin edən yorulmaz fəaliyyətində təhsil sektorunun əsaslı şəkildə qurulması, sürətli inkişafı məsələləri xüsusi yer tutur. Muxtar respublikamızda təhsil müəssisələrinin müasir dünya standartları səviyyəsində mükəmməl maddi-texniki baza ilə təmin olunması və intensiv fəaliyyəti üçün həyata keçirilən sistemli, ardıcıl tədbirlər özünün böyük nəticələrini ildən-ilə qabarıq şəkildə göstərməkdədir. Püsyan kəndində tam orta məktəb binasının yenidən qurulması da bu günümüzə və gələcəyimizə göstərilən böyük qayğının parlaq təzahürüdür.

Qeyd edək ki, 330 şagirdin təhsil aldığı məktəbin yeni binasının layihəsində kəndin gələcək perspektivi nəzərə alınıb. Yeni bina 720 şagird yerlik nəzərdə tutulub. İnşaatçılara hərtərəfli iş şəraiti yaradılıb. Bu isə inşaat işlərinin sürətlə və keyfiyyətlə aparılmasına imkan verir. Köhnə məktəb binasında bəzi yardımçı tikililər sökülüb, əvvəlki binaya daha bir korpus əlavə edilib. Artıq binanın dam örtüyü vurulub, suvaq işləri qurtarıb, pəncərələr salınıb, kommunikasiya xətlərinin çəkilişi başa çatdırılıb. Zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarət olan məktəb binasında 40 sinif otağı, kimya, biologiya, fizika laboratoriyaları, 3 elektron lövhəli sinif, 3 kompüter otağı, hərbi kabinə, idman zalı, direktor, psixoloq və müəllimlər otaqları, yeməkxana yerləşəcək. Tikinti işləri yekunlaşmaq üzrədir.

Bu il məktəbin 4 məzunu ali məktəblərə qəbul olunub. Abituriyentlərdən 1-i 500-dən, 1-i isə 600-dən yuxarı bal toplayıb. Təhsil ocağının şagirdlərindən 2 nəfər Hərbi Liseyə qəbul olunub. Lakin bu nəticə pedaqoji kollektivi arxayınlaşdırmır. Məktəbin direktoru Ülkər Nağıyeva söhbət zamanı dedi ki, binamızın müasir tələblər səviyyəsində yenidən qurulması məktəbdə təhsilin səviyyəsini daha da yüksəltməyə imkan verəcəkdir.

İkimərtəbəli həkim ambulatoriyası kəndə xüsusi gözəllik bəxş edəcək. Həkim ambulatoriyasının tikintisində keyfiyyət amilinə xüsusi diqqət yetirilir. Ambulatoriyada uşaq həkimi, ginekoloq, stomatoloq, baş həkim fəaliyyət göstərəcək, aptek, palata, doğuş, peyvənd, manupulyasiya, qeydiyyat və müayinə otaqları yerləşəcəkdir. Bütün bunlar kənddə əhaliyə nümunəvi səhiyyə xidməti göstərməyə imkan verəcəkdir.

Digər bir obyekt kənddə fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. İnşaatçılar iki mərtəbədən ibarət olan kənd mərkəzində son tamamlama işləri aparırlar. Binanın birinci mərtəbəsi poçt, ATS, qazanxana, baytarlıq məntəqəsi, kitabxana, arxiv və sahə müvəkkili üçün nəzərdə tutulub. İkinci mərtəbə isə kənd inzibati ərazi dairəsi üzrə nümayəndə və bələdiyyə üçün ayrılıb. Həmçinin Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub işçiləri üçün ayrılan otaq və iclas zalı da ikinci mərtəbədə yerləşəcək.

Püsyanda geniş vüsət alan çoxşaxəli abadlıq-quruculuq işləri bununla bitmir. Birmərtəbəli xidmət mərkəzində isə ticarət və xidmət obyektləri fəaliyyət göstərəcəkdir.

Qeyd edilən hər 4 obyektin tikintisi “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən həyata keçirilir. İş icraçısı Vüqar Şabanov bildirdi ki, tikintilərin vaxtında və keyfiyyətlə başa çatması üçün inşaatçılar səylə çalışırlar. İnşaat işləri yekunlaşdıqdan sonra ətrafda abadlıq tədbirləri görüləcək, ağac və gül kolları əkiləcək, yeni park salınacaqdır.

Bu qədər böyük tikintinin getdiyi Püsyan kəndinə inşaat materialları daşıyan maşın karvanları ilə rastlaşdıq. Bu qədər maşın-mexanizm, quruculuq işləri kənd sakinlərində böyük fərəh yaradıb. On illər boyu şagirdlərinə Azərbaycan dili və ədəbiyyatını səylə öyrədən 80 yaşlı Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi Teymur Əliyevlə tikinti meydançasının yaxınlığında qarşılaşdıq. Çoxillik səmərəli pedaqoji fəaliyyətdən sonra hazırda təqaüddədir. O, kənd məktəbinin ötən çağlardakı durumunu xatırlayır, yeni məktəb binasının tikintisi barədə həvəslə danışır:

– Bir zamanlar kənddə dərs keçilən binaya məktəb binası deməyə adamın dili gəlmirdi. Həddindən artıq yararsız hala düşmüşdü. Partalar və yazı taxtaları da köhnə və keyfiyyətsiz idi. Fənn kabinələri, laboratoriyalar isə yalnız xəyallarımızda yer alırdı. Sonralar yeni məktəb binası tikildi, şəraitimiz nisbətən yaxşılaşdı, lakin köklü problemlər qalmaqda idi. Bütün bunları yaşamış bir müəllim olaraq indi mənim sevincimin həddi-hüdudu yoxdur – kəndimizin digər sakinləri də mənim kimi. Müasir şəhər məktəblərində olan hər cür şəraitin yaradılacağı bu yeni məktəb binasının istifadəyə verilməsi elmə, təhsilə misilsiz dövlət qayğısının parlaq təzahürü olacaqdır.

95 yaşlı kənd ağsaqqalı İbrahim Əliyev də Teymur müəllimin sözlərinə qüvvət verir:

– Gözümü bu dünyaya Püsyanda açmışam. Deyim ki, nə mən, nə də ata-babalarımız Püsyanın belə xoş günlərini görmüşük. Bu gün dədə-baba yurdumuz olan doğma kəndimizə belə qayğı göstərilməsi muxtar respublikamızda ulu öndərimizin yolunun uğurla davam etdirilməsinin nəticəsidir. Bəzən bu qədər qayğı üçün minnətdarlıq etməyə söz də tapmırsan. Nə deyək, hər şey göz qabağındadır.

Firudin Quliyev də söhbətə qoşulur, fikirlərini bizimlə bölüşür:

– Püsyanda kənd mərkəzinin, həkim ambulatoriyasının, xidmət mərkəzinin inşa olunması əhalinin daha rahat və firavan yaşayışının təmin olunmasına yönəldilib. Bunların hər biri kənd üçün böyük əhəmiyyət daşıyır. Xəstələrimizə ilkin tibbi xidmət üçün uzaq məsafə qət edib başqa yerlərə üz tutmağımıza ehtiyac qalmayacaq. Gündəlik tələbat malları, ərzaq məhsulları almaq üçün Naxçıvan və Şərur şəhərlərinə getmək çətinliyi də aradan qalxacaq – kəndli təsərrüfatı üçün zəruri olan baytarlıq xidmətinin təşkili də bunun kimi. Hər cür xidmət imkanları olacaq rabitə evi də ürəyimizcədir. Bir sözlə, kəndimiz üçün şəhər ovqatı, şəhər görüntüsü, şəhər rahatlığı yaradan muxtar respublika rəhbərinə daim minnətdarıq. Bütün bunların müqabilində hamımız daha səylə çalışmalı, kəndimizin bütün sahələrdə yeni uğurlar qazanmasına, təhsilin, kənd təsərrüfatının yeni yüksəlişinə nail olmalıyıq.

Bəli, Püsyanda geniş bir ərazidə həyata keçirilən quruculuq meydançasında yükdaşıyan ağırtonnajlı maşınların, ekskavatorların, qaldırıcı kranların səsi bir-birinə qarışmışdı. Usta və fəhlələr böyük səylə, həvəslə işləyirdilər. Bu mənzərəni kənardan seyr edən kənd sakinlərinin isə sevinci yerə-göyə sığmır...

### Torpağın sahibləri

Məhsuldar, bərəkətli torpaq sahələri olan Püsyanın yurd qədri bilən insanları ilə söhbətdə bir daha inandım ki, onlar dövlətimizin həyata keçirdiyi tədbirləri ürəkdən alqışlayırlar, müstəqilliyimizin verdiyi bəhrələrin artırılması üçün səy və bacarıqlarını əsirgəmirlər.

İnzibati ərazi dairəsi üzrə nümayəndə Əli Əsədovla söhbətdə öyrəndik ki, kəndin ümumi ərazisi 1407 hektardır. Aqrar islahatlar zamanı püsyanlıların şəxsi mülkiyyətinə kifayət qədər pay torpağı verilib. Kənd adamları bu torpaqlardan, əsasən, taxılçılığın, kartofçuluğun, bostan-tərəvəzçiliyin, meyvəçiliyin və heyvandarlığın inkişafı üçün istifadə edirlər.

İnzibati ərazi dairəsi üzrə nümayəndə onu da xüsusi vurğuladı ki, dövlətimiz əmək adamlarını torpaq vergisindən başqa, bütün vergilərdən azad edib, onlara müntəzəm surətdə subsidiyalar, güzəştli şərtlərlə gübrələr, yanacaq və sair verilir. Yollar çəkilir, meliorativ tədbirlər icra edilir. Bütün bunlar, şübhəsiz ki, sahibkarlığın inkişafına güclü təkan verir. Artıq kəndli torpağın əsl sahibinə çevrilib.

Kənddə pay torpağını əkib-becərməyən adama, demək olar ki, rast gəlinmir. Torpağın sahibləri muxtar respublikada taxılçılığın inkişaf etdirilməsi, daxili bazarın bu strateji məhsula tələbatın yerli imkanlar hesabına ödənilməsi üçün həyata keçirilən tədbirlərdə xüsusilə fəallıq göstərirlər. Şərur rayonunun daha çox taxıl yetişdirilən kəndi məhz Püsyandır. Təkcə “Muxtariyyət ili”ndə 910,5 hektarın məhsulu biçilib ki, bu da əvvəlki ildəkindən 128,5 hektar artıqdır. Taxılçılar bu il hektarın orta məhsuldarlığını 35 sentnerə çatdırıblar. Bu, 2013-cü ilin göstəricisini 5 sentner üstələyir. Ayrı-ayrı torpaq mülkiyyətçilərində bu rəqəm daha yüksək olub. Onlardan biri ilə – Ələkbər Cəfərovla həmsöhbət oldum. Onun dediklərindən:

– Kəndimizdə tarixən taxıl yetişdirilib. Çünki torpaqlarımız yüksək məhsuldarlığa malikdir. Son illər kənd adamlarına bu sahəni daha da inkişaf etdirmək üçün əlverişli şərait yaradılması taxılçılığa marağı xeyli artırıb. Problemlərin həllinə həssaslıqla yanaşılan yerdə, təbii ki, qazanılan uğur da yüksək olur. Zəhmətlə hasilə gətirilən sərvətin isə qiyməti əvəzsizdir. Kənd adamı da yaxşı yaşaması üçün zəhmətə qatlaşır. Bilir ki, torpağa axıtdığı tər havayı yerə getmir. Ona görə də sahibi olduğu torpaqdan ikiəlli yapışıb. Keçən ilin payızında 16 hektara buğda əkmişdim. Məhsulum yaxşı oldu – hektardan 40 sentner. Kəndimizdə təcrübəli taxılçılar çoxdur: Elnur Əliyev, Səfər və Elşən Tağıyevlər və başqaları bol məhsul yetişdiriblər.

Artıq sahələrdə gələn ilin taxıl əkini üçün şum qaldırılmasına başlanılıb. Bu tədbiri və əkin kampaniyasını vaxtında yekunlaşdırmaq, gələn ilin bol məhsulunun əsasını qoymaq üçün torpaq mülkiyyətçiləri əzmkarlıq göstərirlər. Onlar bu il də rayonda taxıl əkini sahəsində birinciliyi əldən vermək fikrində deyillər.

Kartofçuluq da torpaq sahibkarlarının daha çox məşğul olduqları sahələrdən biridir. Onlar bu gəlirli sahəni inkişaf etdirməklə həm öz tələbatlarını ödəyir, həm də daxili bazarın bu qiymətli ərzaq məhsulu ilə təmin olunmasına töhfə verirlər. Keçən il 937 ton kartof götürən püsyanlılar bu il 60 hektar sahəyə toxum basdırmışlar. Artıq tarlaların yarısının məhsulu torpaqdan çıxarılıb, 500 tondan çox kartof toplanılıb.

Püsyanda inkişafına ciddi önəm verilən sahələrdən biri də bostan-tərəvəzçilikdir. Cari ildə 221 hektar sahədə bostan-tərəvəz əkini keçirilib. Tonlarla məhsul yığılıb.

Meyvəçilik Püsyanda ata-babadan inkişaf etdirilən sahələrdən biridir. Kənd adamları bütün həyətlərdə və pay torpaqlarında müxtəlif növ meyvələr yetişdirməkdə ad-san qazanıblar. Keçən il bağlardan 1146 ton dadlı-tamlı meyvə tədarük olunub. Bu il isə bazara azı 1200 ton meyvə çıxarmaq qərara alınıb. Hələlik bağlardan 800 tona yaxın meyvə dərilib.

Kənd adamlarının iqtisadiyyatına gəlir gətirən sahələrdən biri də heyvandarlıqdır. Püsyanın təbii şəraiti burada heyvandarlığın inkişafı üçün də geniş imkanlar yaradır. Ona görə də kənddəki heyvandarlıq təsərrüfatları ildən-ilə genişləndirilir, malqaranın baş sayı artırılır. İndi kənddəki təsərrüfatlarda, ümumilikdə, 4 mindən çox qaramal və 13 mindən çox davar bəslənilir. Qeyd edək ki, rayonda ət və süd məhsullarına olan tələbatın ödənilməsində bu yaşayış məntəqəsi sakinlərinin xüsusi xidməti var. Buradakı peşəkar fermerlərdən olan Vahid Əliyevlə yaxından tanış olduq, fəaliyyəti ilə maraqlandıq:

– Ailəlikcə kəndimizi tərk edib Bakı şəhərində məskunlaşmışdıq. Bir müddət kiçik ticarətlə məşğul oldum. Zərərə düşdüyüm üçün bu peşənin daşını atdım və yenidən doğma kəndimizə qayıtdıq. Əvvəlcə 5-10 qoyun aldım. İndi davarımın sayını 180 başa çatdırmışam. Doğrudan da, halal əmək başucalığıdır. Firavan dolanışığımı, xoşbəxtliyimi doğma yurdumda tapmışam. Odur ki, kəndimi dünyanın heç bir yerinə dəyişmərəm.

Püsyanda kənd adamlarının son illər bu sahəyə daha ciddi önəm vermələri muxtar respublikada heyvandarlığın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlərlə əlaqədardır. Regionda baytarlıq xidmətinin yaxşılaşdırılması, heyvandarlıqla məşğul olanlara kreditlərin verilməsi və digər tədbirlər bu kənddə də bəhrəsiz qalmır.

***Bu gün Püsyanda, sözün həqiqi mənasında, yeni həyat çağlayır. Kənd adamlarının zəhmətə bağlılıqları, onlara göstərilən dövlət qayğısı qazanılan uğurların sabah daha çox olacağından soraq verir. Mehrini torpağa salan, yetişdirdiyi nemətlərlə gün-güzəranını quran Püsyan camaatının buna haqqı var. Ölkəmizin dinamik inkişafından bu yaşayış məntəqəsinə düşən pay adamların rifah halının gündən-günə yaxşılaşması ilə müşayiət olunur. Bütün bunlar müstəqilliyimizin qısa tarixdə xalqımıza bəxş etdiyi ərməğan kimi kənd əhalisi tərəfindən rəğbətlə qarşılanır, yüksək qiymətləndirilir.***

Cəfər ƏLİYEV

# Əmək yarmarkasında 35 nəfərə işə göndəriş verilib

Dünən Culfa şəhərində növbəti əmək yarmarkası keçirilib. Tədbiri giriş sözü ilə açan Culfa Rayon Məşğulluq Mərkəzinin direktoru Yalçın Hüseynov muxtar respublikada əhalinin məşğulluğunun təmin olunması istiqamətində son illər həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb. Qeyd olunub ki, şəhər və rayonlarımızda fəaliyyət göstərən məşğulluq mərkəzləri öz işlərini təmsil etdikləri bölgələrdə idarə, müəssisə və təşkilatlarla əlaqəli şəkildə quraraq boş iş yerləri haqqında məlumatlar toplayır, əmək yarmarkalarında həmin iş yerlərini qeyri-məşğul vətəndaşlara təqdim edirlər. Culfa Rayon Məşğulluq Mərkəzi də fəaliyyətini bu istiqamətdə qurub. Ötən illərdə mərkəzə müraciət edən vətəndaşlar əmək yarmarkaları vasitəsilə özlərinə daimi iş yeri tapıb.

Əmək yarmarkasında Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Qasımov çıxış edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində müvafiq tədbirlər reallaşdırılır. Qeyd olunub ki, muxtar respublikamızda da həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təminatında mühüm rol oynayır və muxtar respublika sakinləri tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir.

Tədbirdə çıxış edən işaxtaran vətəndaş Əbülfəz Əliyev dövlətimiz tərəfindən əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlərə görə minnətdarlığını bildirib.

Yarmarkada işaxtaran vətəndaşlara 23 təşkilatdan 183 boş iş yeri təqdim edilib. Tədbirdə 35 nəfərə işə göndəriş verilib.

Xəbərlər şöbəsi

*Bu il görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin anadan olmasından 160 il ötür. Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2014-cü il 20 avqust tarixdə "Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən, Tədbirlər Planı təsdiq edilmiş, görkəmli maarifçimizin yubileyinin muxtar respublikada geniş qeyd edilməsi, bu münasibətlə elmi konfrans və digər yubiley tədbirlərinin keçirilməsi, eləcə də mətbuatda M.T.Sidqinin həyatına, ədəbi, elmi və pedaqoji fəaliyyətinə həsr olunmuş məqalələrin dərc olunması nəzərdə tutulmuşdur. Qeyd olunan mövzularda qəzetimizdə silsilə yazılar dərc olunacaq. Bu silsilədən ilk yazını oxuculara təqdim edirik.*

*Məhəmməd Tağı Sidqi – 160*

# Məhəmməd Tağı Sidqi yaradıcılığında ata-anaya hörmət və övlada qayğı



Azərbaycan maarif və məktəbdarlığının inkişafı tarixində Məhəmməd Tağı Sidqinin göstərdiyi misilsiz xidmətlər yalnız təsis etdiyi məktəblərlə bitmir. O, "Tərbiyə" məktəbində müdir və müəllim olduğu müddətdə "Heykəli-insana bir nəzər", "Puşkin", "Kəblə Nəsir" kimi mətbu, "Məsnəviyyati-mədəniyyət", "Həkimanə sözlər", "Yüz il yatandan sonra" kimi ictimai-siyasi, fəlsəfi, etik və elmi-pedaqoji əsərlərin və "Nümuneyi-əxlaq", "Coğrafiya xüsusunda məlumati-mücmələ", "Tənviri-əfkar və təfhimi-insaniyyət", "Töhfeyi-bənat, yainki qızlara hədiyyə" kimi mühüm dərsliklərin müəllifi olmuşdur.

Sidqinin "Məktəbi-tərbiyə" şagirdləri üçün hazırladığı ədəb qaydaları bu gün də öz təsir qüvvəsini itirməmişdir və müasir məktəblərimizdə həmin qaydalara əməl edilməsi vacib şərtlərdən biri sayılmalıdır.

Yorulmaz maarif fədaisi Məhəmməd Tağı Sidqinin Azərbaycan maarifi və mədəniyyətinin tərəqqisində göstərdiyi xidmətləri C.Məmmədquluzadə belə ifadə etmişdir: "Sidqinin Vətənimizə etdiyi qulluğun qədrini bilməkdən ötrü lazımdır müqabilə etmək camaatımızın savad və maarif aləmində olan indiki əhvali ilə on il bundan əqdəm halətini. Tərəqqi çox artıq görünür və əgər söyləsək ki, bu tərəqqinin onda doqquzuna bais məhz Sidqidir, insafdan və həqiqətdən biləmərrə uzaq olmaz. O hörmət və məhəbbət ki, camaatımız mərhuma göstərirdi, indiyə kimi heç bir şəxsə göstərməyib…"

Məhəmməd Tağı Sidqi təkcə məktəb müəllimi kimi deyil, həm də maarifçi şair və yazıçı kimi ad-san qazanmışdır. M.T.Sidqinin yaradıcılığında maarifçi şeirlərin xüsusi yeri vardır. Pedaqoji görüşlərində məktəbi "cəhalət dərdinin dərmanı", müəllimi isə "cəhalət bağının bağbanı" sayan görkəmli maarif xadiminin poetik öyüdnamələrində də elm ilə dünyanın abad olunmasının mümkünlüyündən, dünya dillərini öyrənməyin faydalarından, kamil insan olmaq qayəsindən geniş bəhs olunur.

Ailə tərbiyəsində öyüd-nəsihətlər tarix boyu nəsillərin həyat, davranış və fəaliyyəti üçün əsas götürülmüş, adamların həyat dərsliyi kimi təlimat rolunu oynamış və müxtəlif dövrlərdə yaşamış qabaqcıl fikirli şəxsiyyətlərin əsərlərində daha da cilalanmışdır. Buna inanmaq üçün Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərindən oğlu Məhəmmədə nəsihətini, Marağalı Əhvədinin "Cami-cəm" poemasını, Şah İsmayıl Xətainin "Nəsihətnamə"sini, Məhəmməd Füzulinin oğlu Fəzliyə "Nəsihət"ini, Məsihinin "Əziz oğluma öyüdlər"ini, Abbasqulu ağa Bakıxanovun "Kitabi-nəsihət"ini, Seyid Əzim Şirvaninin oğlu Cəfərə, Mirzə Ələkbər Sabirin oğlu Məmmədsəlimə və Məhəmməd Tağı Sidqinin oğlu Məmmədəli Sidqiyə ünvanlanmış öyüd-nəsihət dolu fikirlərini xatırlamaq kifayətdir.

Elə bu fikrə əsaslanaraq biz də burada M.T.Sidqinin valideyn-övlad münasibətlərinə baxışını qismən də olsa, işıqlandırmağa çalışacağıq.

Bildiyimiz kimi, XIX əsrin axırları, XX əsrin əvvəllərində cahil və fanat mollaların, axundların, zahidlərin baxışlarına görə, qızların oxuması və ya oğlanların yeni üsullu məktəblərdə təhsil alması dinə qarşı çıxmaq kimi dəyərləndirilirdi. Məhəmməd Tağı Sidqi isə "Qurani-Kərim"dən sitat gətirərək qara camaatı inandırmağa çalışırdı ki, qızların təhsil almasında heç bir qadağa yoxdur. Sonralar bu mənzərəni Sidqinin müasiri Məşədi Zeynalabdın belə xatırlayır: "Mirzə Təqi müəllimlə mollaların, müşteyidlərin bərk davası düşdü… Onlar istəmirdilər ki, Sidqi müəllim qızları oxutsun. Əslinə baxsan, heç bizim də könlümüz yox idi. Elə ki Mirzə Təqi müəllim qızların oxumasını "Quran"nın da tələb etdiyini camaata oxuyub göstərdi, daha şəkk olmadı".

Göründüyü kimi, belə uzun sürən mübahisə və təbliğatdan sonra 1896-cı ildə Sidqi "Qız məktəbi"ni təsis etmiş və cəmi səkkiz qızın təhsil və tərbiyəsi üçün fəaliyyətə başlamışdır. Sidqi qızlara dünyəvi təhsil verməklə kifayətlənməmiş, həmçinin bu gün də tərbiyəvi əhəmiyyətini itirməyən gözəl bir dərslik – "Töhfeyi-bənat, yainki qızlara hədiyyə" əsərini Azərbaycan pedaqoji fikir tarixinə ərməğan etmişdir.

Məhəmməd Tağı Sidqinin "Qızlara hədiyyə" dərsliyindəki "Tərbiyənin təfavütü", "Ata və ana məhəbbəti", "Ədəbli və tərbiyəli Rübabə", "Validə məhəbbəti", "Bala tərbiyəti" kimi əxlaq dolu hekayələrindən bir qisminə nəzər salaq.

"Ata və ana məhəbbəti" hekayəsində Sidqi valideyn və övlad sevgisini təsvir edərək belə qeyd edir ki, heyvanlar və ya quşlar balalarını qısa müddət bəslədikdən sonra artıq onları mühafizə etmir, qaydına və ya qayğısına qalmırlar. Ancaq insanlar öz balalarının daim qayğısını çəkir, diqqətlərini bir an olsun belə, onlardan ayırmırlar, deyərək yazır: "Nərgiz xanım ilə Qönçəbəyim bağçada dərslərinə məşğul ikən bağçanın divarında yuva tutmuş sərçələr civ-civ və cəh-cəh ilə balalarına dən gətirirdilər. Qönçəbəyim dərsdən fariğ olub sərçələrin hal və hərəkətinə və balalarına olan meyil və məhəbbətinə diqqətlə mütəvəcceh idi. Bu halda Nərgiz xanım da dərsini tamam edib Qönçəbəyimə dedi ki:

– A qız, Qönçə, bu sərçələrə baxıb nə çox təəccüb edirsən?

– Xanım bacı, əsla sərçələrə baxıb təəccüb etmirəm. Bunların bu qədər öz balalarına olan məhəbbətinə təəccüb edirəm.

– Cəmi heyvanatın öz balasına olan məhəbbəti məlumdur. Bunda təəccüb yeri yoxdur. İnsanın da öz övladına olan məhəbbəti bunların məhəbbəti ilə bərabər ola bilərmi?

– Bu qədər bil ki, insanın heyvanatdan ağıl və fərasəti, fəziləti və şərafəti nə qədər artıqsa, övladına olan məhəbbəti ondan dəxi artıqdır.

– Nə səbəbə artıqdır?

– Ondan ötrü ki, yumurtadan çıxmış bir quş ki hənuz uçub getməyə qadir deyil, ata və anası toxumdan, qurddan, milçəkdən və sair cücülərdən gətirib onları bəslər. Elə ki bədəni və qanadları kamilən tüklənib pərvaz oldu, onlar dəxi özləri uçub gedib ruzi axtarmağa başlar və anaları da onları mühafizə etməkdən asudə olarlar. Amma insan öz balasına on beş-iyirmi yaşına kimi pərvəriş verib hər bir ləvazimatını tədarük eylər. Ondan sonra yenə həmişə onun hümmətinə və qəminə şərik olub ömrünün axırına kimi balasının yolunda zəhmət çəkib can qoyar. Məazallah, ata və ananızın haqqı nə böyükdür! Və nə qədər onlara itaət və məhəbbət etmək lazım gəlir!"

Uşağın şəxsiyyət kimi düzgün tərbiyəsinin və sonrakı inkişafının əsası, təbii ki, ailədə qoyulur və ailə tərbiyəsinin düzgün qoyulmasından başlayır. Məhəmməd Tağı Sidqi istəyirdi ki, qızlarımız əqidəli, doğrucul, vətənpərvər, milli mentalitetlərimizi sevən və onu yad təsirlərdən qoruyan qadınlar kimi böyüsünlər. Bunun üçün də qızlarımızın özlərinin tərbiyə görməyə ehtiyacı vardır. Bu ehtiyacı da ancaq "analar yetişdirəcək məktəblər" ödəyə bilər. Pedaqoq Sidqi qadının – qızların təhsil almasını vacib bilir və göstərirdi ki, gələcək cəmiyyətin taleyi onların öz uşaqlarına verdiyi tərbiyədən çox asılıdır. O, qızların ailədə feodal-patriarxal münasibətlər əsasında tərbiyəsinə qarşı məktəb tərbiyəsini, sağlam ailə tərbiyəsini qoyur, oğlanlar kimi qızların da yeni məktəblərdə oxumasını tələb edirdi. Əgər hər bir ana məktəb tərbiyəsi görübsə, təbii ki, uşağının da tərbiyəsi ilə düzgün məşğul olar.

"Bala tərbiyəti" adlı hekayəsində Sidqi iki ananı qarşılaşdıraraq onların bir-birindən tam fərqli olan cəhətlərini gözəl bir nümunə şəklində belə təsvir edir: "Övlada əvvəlinci təlim və tərbiyə verən anadır. Anaların rəftarı və kirdarı, hal-hərəkəti balaların qəlbinin aynasına əks salır. Elmli və mərifətli analar süd verən vaxtdan başlayıb övladının təlim və tərbiyəsilə məşğul olurlar. Hüsni-əxlaq və ədəb tərbiyətə vaqif olan validə balasının təlim və tərbiyəsini özünün bəzənib-düzənməyindən vacib bilir.

Bir gün zər və zivərə həris olan bir arvad faxir libaslarını geyib və cəvahiratı ilə bəzəndiyi halda bala tərbiyəsinə aşiq olan bir xanımın evinə gəldi. Qiymətli libasını və bahalı qaş-daşını iftixarla göstərəndən sonra mürəbbiyə xanımı adi və sadə libasda görüb: "Sənin də zər-zivərini görmək istəyirəm" – dedi.

Xanım cavab verdi ki:

– Əgər bir az səbir eləsən, onları sənə nişan verərəm.

Bir azdan sonra balaları məktəbdən gəlib evə daxil olanda onların əlindən tutub o arvadın yanına gətirdi və dedi:

– Mənim də zər-zivərim, mülk və malım, cah və calalım bu iki gözlərimin nuru və ciyərparələrimdir. Mənim üçün əziz balalarıma təlim və tərbiyə vermək cavahiratdan qiymətlidir".

Məhəmməd Tağı Sidqinin fikirlərindən aydın olur ki, hər bir ana öz uşağının tərbiyəsi ilə məşğul olmağa bütün məsuliyyəti ilə borcludur. O, valideynlik borcunu ödəməli, uşağını cəmiyyətin yararlı üzvü kimi tərbiyə etməli, onun aqibəti ilə maraqlanmalıdır. Əxlaqi cəhətdən möhkəm olan namuslu vətəndaşlar tərbiyə etmək üçün maarifçi pedaqoq, yuxarıda qeyd etdiyimiz kimi, anaların özlərinin qüsursuz olmalarını, onların müəyyən qədər pedaqoji biliklərə yiyələnmələrini zəruri hesab edirdi. Görkəmli pedaqoq Məhəmməd Tağı Sidqi istəyirdi ki, ana qarşısında duran bu kimi çətin, eyni zamanda şərəfli və məsuliyyətli vəzifələr mümkün qədər inandırma, şəxsi nümunə əsasında həyata keçirilsin. Bütün bu qeyd olunan keyfiyyətlər isə ancaq və ancaq elm yolu ilə, təhsil yolu ilə əldə edilə bilər. Görkəmli yunan filosofu Sokrat deyir ki: "Pislik biliyin azlığından irəli gəlir, şər isə biliyin yoxluğundan törəyir". Bu mənada Sidqi də üzünü şagirdlərinə tutaraq deyir: "Ey mənim xoşbəxt şagirdlərim! Gərəkdir ki, gözəl xasiyyətlərə rəğbət göstərib və pis sifətlərə nifrət edəsiniz. Çünki elminə əməl etməyən alim əlində bir işıqlı çıraq saxlayan kora bənzər". Göründüyü kimi, Sidqi qızlarımızın pis fikir, pis düşüncə, şər və böhtandan uzaqolma yolunu elm və təhsilə yiyələnməkdə görürdü. "İki bacının mükaliməsi" hekayəsində pedaqoq fikrini bir daha əsaslandıraraq belə yazır: "Balaca bacım! Sən hənuz kiçiksən. Elmin ləzzətini və faydasını... bilməyirsən. Bu qədər bil ki, dünyada heç bir şey elmsiz əmələ gəlməz. Və insanın hər işində və əməlində elmə ehtiyacı vardır. İnsanın fəziləti və heyvan ilə insanın təfavütü elm ilə bilinir. Sən də elm, ədəb təhsil et, yainki dünya və axirətdə səadətmənd olasan".

Digər ədib və ziyalılarımız kimi, maarif fədaisi, şair Məhəmməd Tağı Sidqinin də yaratdığı əsərlər, elm təhsil etməklə nurlanan fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onun ömür yolu və yaradıcılığı ətraflı öyrənilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 20 avqust tarixli "Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı da bu baxımdan mühüm əhəmiyyətə malikdir. Həmin sərəncam muxtar respublikanın ziyalıları tərəfindən görkəmli şəxsiyyətlərimizə, ədib və şairlərimizə, onların fəaliyyətinə və yaradıcılığına verilən qiymət kimi dəyərləndirilir.

**Kamal CAMALOV**
***pedaqogika üzrə fəlsəfə doktoru***

*Gəncliyimiz, gələcəyimiz*

# Ümummilli lider Heydər Əliyev adına tam orta məktəbin məzunu olmağımızla qürur duyuruq

*Ulu öndər Heydər Əliyevin adını daşıyan məktəbdə təhsil almaq hər bir Azərbaycan gənci üçün qürurvericidir. Heydər Əliyev adına tam orta məktəb yaradıldığı ilk gündən keçən 10 il ərzində ulu öndərin adına layiq fəaliyyəti ilə təkcə Naxçıvan Muxtar Respublikasının deyil, ölkəmizin təhsil sistemində öz qabaqcıl yerini tutmaqdadır. Builki qəbul imtahanlarında məktəbi bitirən məzunlardan 43-ü ali məktəblərin, 3-ü isə orta ixtisas məktəblərinin tələbəsi adına layiq görülmüşdür. Onlardan 14 nəfər 500-700 intervalında bal toplamışdır. Həmin gənclərin bir neçəsini oxucularımızla tanış edirik:*



***Gültac ZEYNALZADƏ:*** – Bu gün muxtar respublikamızda geniş quruculuq işləri həyata keçirilir. Bu quruculuq işlərinin önündə isə təhsil quruculuğu dayanır. Təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, ən müasir informasiya texnologiyaları ilə təmin edilməsi şagirdlərin daha yaxşı oxumaları üçün stimuldur. Bizim məktəbdə şagirdlərin hərtərəfli biliyə yiyələnməsi üçün hər cür şərait yaradılıb. Təbii ki, yaradılan bu şərait uğur qazanmağımın başlıca səbəblərindən biridir. Təhsil aldığım müddətdə bir çox uğurlar qazanmışam. 2013-2014-cü tədris ilində "fizika" fənni üzrə fənn olimpiadasında üçüncü yerə layiq görülmüşəm. Onu da xüsusilə vurğulamaq istəyirəm ki, ümummilli lider Heydər Əliyevin adını daşıyan bir məktəbin məzunu olmaqdan qürur duyuram.

Qəbul imtahanında yüksək bal topladığım üçün sevincimin həddi-hüdudu yoxdur: 644 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "kompüter elmləri" ixtisasına qəbul olunmuşam. Avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikanın ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşündə çıxış etdim. Həyatımın ən unudulmaz anı idi. Ali Məclis Sədrinin tələbə-gənclərin hərtərəfli inkişafına göstərilən qayğıkeş münasibətini həmin tədbirdə bir daha gördük.



***Durna ZEYNALZADƏ:*** – Muxtar respublikada təhsil sahəsinin inkişafı, tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə həyata keçirilən tədbirlər gənclərin parlaq gələcəyindən xəbər verir. Muxtar respublikanın məktəblərinin, o cümlədən məzunu olduğum Heydər Əliyev adına tam orta məktəbin ən müasir informasiya texnologiyaları ilə təmin olunması təhsilə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Qeyd edim ki, bacım Gültacla eyni məktəbdən məzun olduq. Hər ikimizin informasiya texnologiyalarını öyrənməyə böyük marağımız var idi. Sevinirik ki, ikimiz də 600-dən yuxarı bal toplayaraq arzuladığımız ixtisasa qəbul olunduq. Söz veririk ki, yaradılmasının 10 illiyi tamam olan Heydər Əliyev adına tam orta məktəbin adına layiq gənclər kimi təhsilimizi başa vuracağıq. Hələ məktəbdə oxuduğum illərdə məktəbimizin məzunlarının Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tələbələrlə görüşünü eşidir və belə bir görüşün mənə də qismət olmasını arzulayırdım. Və təhsilə göstərilən qayğıdan bəhrələnərək artıq bu arzuma da çatdım.



***Nurlan HƏSƏNOV:*** – Dəqiq elmlərə böyük marağım olub. Dərslərimi əla qiymətlərlə oxumuşam. Bütün bunların sayəsində təhsil aldığım müddətdə bir sıra uğurlarım olub. Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilmiş "fizika" fənni üzrə olimpiadanın respublika turunda I yerə layiq görülmüş, Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilmiş "Mənim hüquq və vəzifələrim" adlı hüquq olimpiadasında I yeri qazanmışam. Bu gün tələbə adını qazanmaq, məncə, heç də çətin deyil. Bunun üçün bizə yaradılan şəraitdən düzgün və səmərəli istifadə edilməlidir. Mən də bu qayğıdan bəhrələnərək Bakı Dövlət Universitetinin "dünya iqtisadiyyatı" ixtisasına qəbul olundum. Onu da qeyd edim ki, ümummilli lider Heydər Əliyevin adını daşıyan tam orta məktəbin məzunu olmağımla qürur duyuram. Bundan sonra da öz üzərimdə çalışacaq, harada oxumağımdan, harada olmağımdan asılı olmayaraq, savadlı, vətənpərvər vətəndaş kimi yetişəcək, Azərbaycan gəncliyinin adını qoruyaraq biz gənclərə göstərilən etimadı doğrultmağa səy göstərəcəyəm.

*Azərbaycan xalqının gələcəyi möhkəm əllərdədir. İnanırıq ki, həmsöhbət olduğum bu gənclər, özlərinin də dediyi kimi, gələcəkdə bacarıqlı mütəxəssis olmaqla dövlətimizə layiqli xidmət edəcəklər.*

*Bu yolda gənclərimizə uğurlar arzulayırıq!*

**Sara ƏZİMOVA**

# Torpaqlarımızın işğaldan azad olunacağı gün uzaqda deyil

***1993-cü il avqustun 23-də Azərbaycan Respublikasının Füzuli və Cəbrayıl rayonları erməni hərbi birləşmələri tərəfindən işğal edilib.***

Füzuli rayonunun əsası 1827-ci ildə qoyulub və ilkin adı Qarabulaq olub. Rayon 1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Füzuli rayonu adlandırılıb.





Füzuli rayonu 8 avqust 1930-cu ildə təşkil edilib. Rayon ərazisindəki Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə müxtəlif dövrlərdə tədqiqatlar aparılıb, Azərbaycan xalqının qədim köklərə sahib olduğu sübut edilib. 1968-ci ildə aşkar olunmuş Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 kilometr aralı məsafədə yerləşən Azıx mağarasında tapılıb. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə rayon ərazisində vaxtilə qədim Paleolit dövrünün mövcudluğunu aşkarlamaqdadır.

Füzuli rayonunda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri var idi. Çox təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), Məşədi Həbib hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulmuş at, qoç fiqurlu qədim abidələr (XVIII-XIX əsrlər) ermənilərin vəhşi vandalizminə məruz qalaraq məhv edilib və ya yandırılıb.

1993-cü ilin bu günü Füzulinin 51 kəndi və rayon mərkəzi ermənilər tərəfindən işğal olunub, 55 min nəfərə yaxın sakin doğma yurdundan didərgin salınıb. Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayınadək sahəni əhatə edir, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Rayonun ərazisi 1386 kvadratkilometr, əhalisi 105 min nəfərdən çoxdur, işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd var. İşğal nəticəsində 1100-dən çox füzulili şəhid olub, 113 nəfər girov götürülüb, 1450 nəfər müxtəlif dərəcəli xəsarət alıb.

İşğala qədər rayonda 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri-zöhrəvi xəstəlikləri dispanserləri, 20 kinoqurğu, texnikum, 2 texniki-peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 12 fermer təsərrüfatı və sair müəssisələr fəaliyyət göstərib.

Erməni işğalı altında olan Füzuli rayonu təbii sərvətlər baxımından zəngin qədim Azərbaycan torpağıdır. Rayonda mişar daşı istehsalına yararlı 2 (Dövlətyarlı, Dilağar) əhəngdaşı, kərpic-kirəmit istehsalına yararlı Kürdmahmudlu gil və qum-çınqıl qarışığı yataqları mövcuddur. Rayon ərazisində yaşı 200 ildən 1400 ilə qədər olan 11 ədəd Şərq çinarı təbiət abidəsi kimi pasportlaşdırılıb və işğala qədər mühafizə olunub.

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə – 1994-cü ilin yanvar ayında Füzuli rayonunun 22 yaşayış məntəqəsi erməni işğalından azad olunmuşdur. Son illər ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə bu yaşayış məntəqələrində geniş bərpa-tikinti və abadlıq-quruculuq işləri aparılıb, 4300-ə yaxın ailə üçün 16 yeni qəsəbə salınıb, 13 ümumtəhsil məktəbi, 13 uşaq bağçası, 2 xəstəxana, 10 tibb məntəqəsi tikilib, Horadiz şəhərində yandırılmış və dağıdılmış 1565 yaşayış evinin əksəriyyəti bərpa olunaraq sakinlərin istifadəsinə verilib, qaz, elektrik xətləri çəkilib, Horadiz Şəhər Mədəniyyət Sarayı əsaslı şəkildə yenidən qurulub və digər mühüm infrastruktur layihələri həyata keçirilib. Nəticədə, ölkənin müxtəlif bölgələrində məskunlaşmış 120 min nəfər rayon sakinindən 70 min nəfəri, o cümlədən 6 min nəfərdən çox Horadiz şəhər sakini öz doğma torpaqlarına qayıdıb. Bu gün bu tədbirlər ölkə Prezidentinin rəhbərliyi ilə davam etdirilir.

Bu gün Cəbrayıl rayonunun da Ermənistan hərbi birləşmələri tərəfindən işğalından 21 il ötür. Cəbrayıl rayonu mərkəzi Cəbrayıl kəndi olmaqla, 1930-cu il avqustun 8-də təşkil edilib. Rayonun sahəsi indiki hüdudları daxilində 1050 kvadratkilometr, əhalisi 24 min nəfərdən çox olub.

Cəbrayılın təcavüzkar Ermənistan hərbi birləşmələri tərəfindən tutulması ilə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı işğal altında qalıb. Hazırda Cəbrayıl rayonundan olan 61 mindən çox məcburi köçkün Azərbaycanın Beyləqan, İmişli, Sabirabad, Biləsuvar və digər rayonlarında məskunlaşıb.

İşğal zamanı Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dək tarixi memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilib.

Xalqımız əmindir ki, işğal olunmuş torpaqlarımız gec-tez erməni işğalından azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, minlərlə köçkün öz yurd-yuvalarına qayıdacaqdır.

**Hazırladı: Sona MİRZƏYEVA**

## Pensiya təminatı sosial sığortanın ödənilməsindən asılıdır

***Bu mövzuda Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Babək Rayon Şöbəsi tərəfindən rayonun Zeynəddin kəndində maarifləndirici tədbir keçirilmişdir.***

Tədbirdə fondun Babək Rayon Şöbəsinin müdiri Natiq Hacıyev və Fərdi uçotun təşkili sektorunun müdiri Azər Məmmədov çıxış edərək məcburi dövlət sosial sığortasının mahiyyəti və üstünlükləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsinin əhəmiyyəti, əmək pensiyaları və sığortaolunanların pensiya təminatı hüququ, sığortaolunanların fərdi uçot sistemi ilə bağlı məsələlər barədə məlumat vermişlər.

Qeyd olunmuşdur ki, məcburi dövlət sosial sığorta haqqı əmək pensiyalarının yeganə maliyyə mənbəyi olduğundan pensiyaların maliyyələşdirilməsi vəziyyəti bilavasitə sığorta haqqının ödənilməsindən asılıdır. İşçilərin sosial sığorta münasibətləri "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktlarla tənzimlənir.

Tədbirdə torpaq mülkiyyətçilərinin məcburi dövlət sosial sığortası üzrə vəzifələrindən də danışılmışdır. Bildirilmişdir ki, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaqları olan mülkiyyətçilər torpağın olduğu ərazi üzrə Dövlət Sosial Müdafiə Fondunun orqanlarında uçota durmalıdırlar.

Qeyd olunmuşdur ki, məcburi dövlət sosial sığorta haqlarını vaxtlı-vaxtında və tam məbləğdə ödəməklə torpaq mülkiyyətçiləri gələcəkdə baş verə biləcək sosial sığorta hadisələrindən sığortalanmış olacaqlar. Ödənilmiş məcburi dövlət sosial sığorta haqları onlar üçün fondda fərdi uçot sistemində açılmış fərdi şəxsi hesablara işlənilir. Gələcəkdə pensiya təyinatı aparıldıqda həmin fərdi şəxsi hesabda olan məlumatlar əsas götürüləcəkdir. Qeyd olunmuşdur ki, məcburi dövlət sosial sığorta haqqı sığortaedənlər tərəfindən "onlayn ödəmə" sistemi vasitəsilə bankda nağd qaydada və ya internet vasitəsilə plastik kartlardan istifadə etməklə ödənilə bilər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Futbol azarkeşlərinin nəzərinə

Topaz Premyer-Liqasının 3-cü turu çərçivəsində avqustun 24-də keçirilməsi nəzərdə tutulan "Araz-Naxçıvan"-"Qarabağ" oyunu rəqib komandanın Avropa Liqasının təsnifat mərhələsindəki çıxışı nəzərə alınaraq Peşəkar Futbol Liqası tərəfindən təxirə salınıb.

## Naxçıvan Muxtar Respublikası Culfa rayonu üzrə 2014-2015-ci tədris ili üçün pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S/№ | Məktəbin adı | Rayon mərkəzi ilə məktəblər arasındakı məsafə (km) | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika və astronomiya | | Kimya | | Biologiya | | Fiziki tərbiyə | | İbtidai sinif | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1 | Culfa şəhər 1 №-li tam orta məktəb | | | | | | | | | | | | 1 | 10 | | | | | | | | | | | 1 | 10 |
| 2 | Yaycı kənd 1 №-li tam orta məktəb | 15 | | | | | | | | | 1 | 12 | 1 | 12 | 1 | 12 | 1 | 12 | 1 | 12 | | | | | 5 | 60 |
| 3 | Yaycı kənd 2№-li tam orta məktəb | 15 | | | | | | | | | | | | | 1 | 12 | 1 | 12 | | | | | | | 2 | 24 |
| 4 | Gülüstan kənd tam orta məktəbi | 5 | | | | | | | | | | | 1 | 12 | | | 1 | 8 | | | | | | | 2 | 20 |
| 5 | Camaldın kənd tam orta məktəbi | 20 | | | | | | | | | | | | | | | | | 1 | 11 | | | | | 1 | 11 |
| 6 | Ərəzin kənd tam orta məktəbi | 22 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 12 |
| 7 | Bənəniyar kənd tam orta məktəbi | 30 | | | | | | | | | | | 1 | 6 | | | | | | | | | | | 1 | 6 |
| 8 | Saltaq kənd tam orta məktəbi | 31 | | | | | | | | | | | | | 1 | 6 | | | | | 1 | 12 | | | 2 | 18 |
| 9 | Göydərə kənd tam orta məktəbi | 33 | | | 1 | 12 | 1 | 12 | | | | | | | 1 | 10 | 1 | 12 | | | | | 1 | 12 | 5 | 58 |
| 10 | Xoşkeşin kənd tam orta məktəbi | 36 | | | | | 1 | 8 | | | 1 | 12 | | | | | | | | | | | | | 2 | 20 |
| 11 | Xanəgah kənd tam orta məktəbi | 36 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 | 1 | 12 | 2 | 24 |
| 12 | Qazançı kənd tam orta məktəbi | 40 | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 13 | Milax kənd tam orta məktəbi | 45 | | | | | | | | | | | | | | | | | 1 | 10 | | | | | 1 | 10 |
| 14 | Ərəfsə kənd tam orta məktəbi | 51 | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | 1 | 10 | | | | | | | 3 | 34 |
| 15 | Boyəhməd kənd tam orta məktəbi | 68 | | | | | | | | | 1 | 12 | 1 | 12 | | | | | | | | | 1 | 20 | 3 | 44 |
| 16 | Göynük kənd tam orta məktəbi | 64 | | | | | | | | | | | | | | | 1 | 8 | 1 | 12 | | | 1 | 12 | 3 | 32 |
| 17 | Şurud kənd tam orta məktəbi | 35 | | | | | | | 1 | 12 | | | 1 | 12 | 1 | 12 | 1 | 12 | | | | | | | 4 | 48 |
| 18 | Gal kənd ümumi orta məktəbi | 29 | | | | | 1 | 6 | | | | | | | | | | | | | | | | | 1 | 6 |
| **Cəmi:** | | | **1** | **12** | **2** | **24** | **4** | **38** | **2** | **24** | **3** | **36** | **6** | **64** | **5** | **52** | **7** | **74** | **4** | **45** | **2** | **24** | **4** | **56** | **40** | **449** |

## Aztəminatlı ailəyə baş çəkilib

Muxtar respublikada əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər aztəminatlı ailələri də əhatə etmişdir. Bu qrupdan olan ailələrin sosial müdafiələrinin gücləndirilməsi məqsədilə ünvanlı sosial yardımların təyin edilməsi, əmək qabiliyyətli ailə üzvlərinin məşğulluq problemlərinin həll olunması, aztəminatlı ailələrə baş çəkilməsi bu səpgidə görülən işlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, növbəti belə görüş Babək rayonunun Nehrəm kəndində yaşayan aztəminatlı, I qrup əlil Elnur Ələkbərovun evində keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi və Səhiyyə nazirliklərinin əməkdaşları ailənin yaşayış vəziyyəti ilə maraqlanmış, ailə üzvlərini tibbi müayinədən keçirmiş, ailəyə məişət əşyası və ərzaq payı verilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan ailənin üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

**Xəbərlər şöbəsi**

### Allah rəhmət eləsin

Aydın Tarverdiyev və Xanəli Kərimli Cəfərqulu Paşayevə, əzizi
**SEVİNC PAŞAYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı

Baş redaktorun müavini:
SƏYYAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 719